# Mübariz İbrahimov Azərbaycan əsgərinin qəhrəmanlıq rəmzidir

## *“Qisası qiyamətə qalmayan igid” adlı ədəbi-bədii kompozisiya*

**Vətən qaladır. Əzəmətli, vüqarlı qala. Sal qaya kimi düşmənin qarşısını kəsən, qəlbi Vətən sevgisi, Vətən eşqilə döyünən cəsur, igid oğullardan biri də Biləsuvar rayonunda dünyaya göz açmış Mübariz İbrahimov idi.**

Mübariz Qarabağ müharibəsi ilə həmyaşıd idi. Ağlı kəsəndən, dili söz tutandan evdə, məktəbdə, televiziya verilişlərində nankor, terrorçu, türk xalqlarına qarşı həmişə düşmənçilik mövqeyində dayanan erməni vəhşiləri barədə çox görüb eşitmişdi. 4 yaşında idi, Xocalı soyqırımı baş verəndə. Məktəbdə Xocalı faciəsindən inşa yazanda, tədbirlərdə iştirak edəndə, televiziyada erməni qəddarlığını əks etdirən süjetlərə baxanda onunla həmyaşıd olan uşaqlara, qadınlara, ağsaqqallara, ağbirçəklərə yalnız azərbaycanlı olduğuna görə erməni cəlladlarının işgəncələr verərək öldürdüklərini görəndə, tərtəmiz ürəyinə göstərəcəyi qəhrəmanlığın ilk sətirləri yazılırdı. Mübariz ona qoyulan adı doğrultdu. Adının möhkəmliyini, vətənin, torpağın yaddaşına yazılan əbədiyaşarlığı zamanın küləkləri, tufanları silə bilməyəcək. Mübariz üçün Vətən hər şeydən üstün, hər şeydən qiymətli, hər şeydən uca idi. Hər dəfə sevgidən söz düşəndə deyərdi ki, mənim vurğunu olduğum yalnız Vətəndir! Vətən torpağı düşmən tapdağındadır, işğal sona yetirilməlidir.

Mübariz hərənin öz yolu var deyirdi: “Mən yolumu seçmişəm. Düşməndən, erməni daşnaklarından ürəyimcə qisas almasam, elə bilərəm ki, Allahım da, valideynlərim də məni bağışlamaz. Vətənin azadlığı üçün qurban lazımdırsa, biri mən...”.

Şəhidlik yenilməzlik əlamətidir. Mübariz İbrahimov işğal altında olan Vətən torpaqlarımızın, boynu bükük dağlarımızın, dili kilidlənmiş bulaqlarımızın həsrətini çəkirdi. Ermənilərin torpaqlarımızda törətdikləri qanlı cinayətlərə heç cür dözə bilmirdi. Sözünün əvvəli də, axırı da Vətən idi. Vətəni qorumağı, şəhidlik zirvəsinə ucalmağı bir övlad kimi şərəf sayırdı.

Mübariz baharı çox sevərmiş. Yazda gül-çiçəyə tamaşa etməkdən doymazmış. Çöl-çəmən döşəyi, sal daşlar yastığı olardı. Bu fani dünyada o, cəmisi 22 bahar yaşadı. Şəhidlik zirvəsinə qovuşanda da bahar çağıydı. Qəlbindən süzülüb gələn bir dərd onu dəli-divanə etmişdi. Günlərin bir günündə əlində silah torpaqlarımızın keşiyində dayanarkən qəflətən qızılquştək şığıyaraq sağa-sola baxmadan yaxınlıqdakı düşmən postuna doğru irəlilədi. Özü də cəsarətlə, dəyanətlə! Çox keçmədən Mübarizin istədiyi məqam yetişdi. Ermənilərin ağlına da gəlməzdi ki, təkbaşına bir Azərbaycan



əsgəri onların cəm olduğu mövqeyə üz tutsun. Bir baxın, Mübarizin qəlbində nə qədər intiqam, qisas var imiş. Biləsuvarın qartal, şahin oğlu bir göz qırpımında işə saldı silahını. Düşmən əsgərləri özlərinə gələnədək çoxlarını leş-leşə söykədi. Ağır yaralansa da, yenə də düşməni



susdurmağı bacardı. Pəhləvan cüssəli, qartal baxışlı Mübariz İbrahimov şəhidlik zirvəsinə ucaldı, son anda ana əvəzinə Vətən torpağını qucaqladı, gözləri qarşısında anasına yazdığı son məktubu canlandırdı...

Vətənin igid oğlu Mübariz İbrahimov ölümündən sonra Prezident İlham Əliyevin fərmanı ilə “Azərbaycanın Milli Qəhrəmanı” fəxri adına layiq görüldü və adı əbədiləşdirildi...

Bu günlərdə Milli Azərbaycan Tarixi Muzeyində Nərimanov rayonundakı 39 nömrəli məktəbin təqdimatında Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimova həsr olunmuş “Qisası qiyamətə qalmayan igid” adlı ədəbi-bədii kompozisiya keçirildi.

Tədbirdə məktəbin direktoru Tahirə Şükürova çıxış edərək vurğuladı ki, xalqımız Mübariz İbrahimov kimi Koroğlu, Babək qeyrətli, sidq ürəklə Vətənə, torpağa bağlı olan, tək başına qorxmadan düşmən üstünə şığıyıb pis xislətli erməni terrorçularını məhv edən Mübariz kimi oğullarla fəxr edir. Onun bu şücaəti düşmən ordusunu lərzəyə salmışdı, daha doğrusu, ermənilərin zabitləri də, əsgərləri də tamam şok vəziyyətinə düşmüşdü...

39 nömrəli məktəbin müəllimləri və şagirdləri bu günlərdə Biləsuvarda oldu. Burada yaddaqalan görüşlər keçirildi. Mübariz İbrahimovla bağlı atası Ağakərim, anası, doğmaları, eləcə də təhsil aldığı məktəbin müəllimləri xatirələrini danışdılar.

Mübarizin mübarizliyindən qürurla söhbət açdılar. Həmçinin, müəllim və şagirdlər xatirə şəkilləri çəkdirdilər.

Tədbirdə Nərimanov Rayon İcra Hakimiyyəti Gənclər və İdman İdarəsinin rəisi Nəcəf Novruzov, şəhid atası Sabir Mirzəyev, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin nümayəndəsi Rəhman Baxşəliyev, Tarix Muzeyinin aparıcı elmi işçisi, dosent Bəhmən Kərimov, Xocalı soyqırımını Tanıtma İctimai Birliyinin sədri Şamil Sabiroğlu, Seyidəliağa Qarabağlı çıxış etdilər.

Mübariz İbrahimovla bağlı keçirilən mərasimdə 39 nömrəli məktəbin şagirdlərinin ifasında ədəbi-bədii kompozisiya nümayiş etdirildi.

Tədbirdən sonra müəllim və şagirdlər Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun İkinci Fəxri xiyabandakı məzərını ziyarət edib, tər qərənfillər düzdülər.

**Qədir ASLAN,**
**“Respublika”.**